# Ordumuz 44 günlük müharibədə tarixi ədaləti təkbaşına gerçəkləşdirdi

***Azərbaycan Ordusu Vətən müharibəsində misilsiz şücaətlər göstərdi, torpaqlarımızın müdafiəsi uğrunda örnək olacaq mübarizə apardı. Bunun nəticəsində Azərbaycan xalqı 30 il ərzində işğala məruz qalan doğma yurdlarına qovuşdu. Bu qələbə heç də təkcə 44 günlük müharibənin nəticəsi deyil. Son 17 ildə aparılan uğurlu daxili və xarici siyasət, iqtisadiyyatımızın daha da gücləndirilməsi, qazanılan beynəlxalq nüfuz, gənclərimizin vətənpərvər ruhda tərbiyəsi, Vətəna canla-qanla bağlılıq, milli-mənəvi dəyərlərə hörmət hisslərinin təbliğ edilməsi kimi mühüm addımlar möhtəşəm zəfərimizi şərtləndirdi.***



Noyabrın 9-da imzalanan bəyanatda isə yer alan Azərbaycanın işğaldan azad olunmamış digər ərazilərinin sülh yolu ilə geri qaytarılması haqqındakı maddələr xalqımızın sevincini birə-min artırdı. Düzdür, onsuz da torpağını azad etmək yolunda şücaətlər göstərən Müzəffər Ordumuz mübarizədən bir an belə yorulmadı və heç vaxt geri çəkilmək niyyətinə düşmədi.

Vətən müharibəsi danışıqların 30 ilə yaxın müddətə uzanmasının səbəblərinə, ermənilərin imitasiya oyunlarına nədən göz yumulduğuna, bu illərin ermənilərlə yanaşı, daha kimlərin marağına xidmət etdiyinə də aydınlıq gətirdi. Hər birimiz onun şahidi olduq ki, BMT Təhlükəsizlik Şurasının məlum dörd qətnaməsinin icrasının təmin edilməsində ermənilərlə yanaşı, bir çox ölkə də maraqlı deyildi. Təəssüf ki, bu mənzərə gözlərimiz önündə cərəyan edən acı reallıq idi. Başqa sözlə, 44 günlük Vətən müharibəsi olmasaydı, həmin qətnamələr uzun onilliklər ərzində bundan sonra da kağız üzərində qalacaqdı. Xalqımızı gözləyən ümidsiz və əlacsız görünən perspektiv yalnız bundan ibarət idi.

Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında qalib Azərbaycan Ordusu BMT və vasitəçi dövlətlərin əvəzinə, bu qətnamələrin icrasını, tarixi ədaləti və beynəlxalq hüququ faktiki təkbaşına gerçəkləşdirdi.

Bəli, yaşadığımız bu böyük tarix Prezident İlham Əliyevin siyasi iradəsinin, ordu quruculuğuna bu illər ərzində sərf etdiyi gərgin əməyin və qəlblərdə vətənpərvərlik ruhunun yaşadılmasının nəticəsidir. Böyük qələbəmiz Azərbaycan dövlətinin ortaya qoyduğu hərbi gücün, Prezident və xalq birliyinin, ümummilli məsələlərdə birləşə bilməyimizin və qardaş Türkiyənin, eləcə də digər dost ölkələrin göstərdikləri siyasi-mənəvi dəstəyin bəhrəsidir.

Bununla da 30 ildən sonra məcburi köçkünlərimiz öz Vətənində didərgin vəziyyətində yaşamağın mənəvi acısından xilas oldular. Bununla da onlar tarixi torpaqlarımıza əsl sahib kimi qayıtmaq, öz el-obalarında yaşamaq, dədə-baba qəbrlərini ziyarət etmək kimi xəyallarna qovuşdular.

Onu da deyim ki, xalqımız bu 44 gündə düşmənin dəhşətli təxribatları ilə üzləşsə də, sınmadı, əyilmədi. Gəncəyə, Bərdəyə atılan raketlər birliyimizi pozmağa, ölkə daxilində çaxnaşma yaratmğa, millətin ruhunu qırmağa hesablanmışdı. Baş tutmadı, daha sıx birləşdik!

Birliyimiz, Ali Baş Komandan ətrafında tək yumruğa çevrilməyimiz bizim bu bəlalardan, dəhşətlərdən şərəflə çıxmağımızda əsas rol oynadı. Prezident bu birliyə söykənərək dünya güclərinin təzyiqlərinə mərdliklə sinə gərdi. Erməni havadarlarının niyyəti isə bizə bir qarış belə torpaq verməmək, burada illərlə müharibənini davam etməsi idi.

Yeri gəlmişkən, burada bir məqamı da qeyd etmək istərdim. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev son 17 ildə ordu quruculuğuna, güclü ordu strategiyasına daim önəm verib, Azərbaycan Ordusunun sosial qayğılarını hər zaman diqqət mərkəzində saxlayıb. Noyabrın 11-də cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşü zamanı da bunun bir daha şahidi olduq. Ali Baş Komandanımızın müalicə olunan hərbçilərə dediyi:



"İndi həyatımızda yeni dövr başlayır. Bu dövr ölkəmizin xoşbəxt gələcəyini təmin edəcək. Sizin həyatınızda yeni dövr başlayır. Siz yaralanmısınız. Amma bilin ki, biz sizi sağaldacağıq. Ən ağır yaralanmış hərbçilərimizi həyata qaytaracağıq. Bizim həkimlərimiz indi gecə-gündüz çalışırlar. Bundan sonra da normal həyata qayıtmaq üçün bütün lazımi tədbirlər görüləcək…" sözləri dövlətimizin başçısının Azərbaycan Ordusuna, onun sıralarındakı cəsur və mərd oğullarımıza həssas münasibətinin ifadəsidir.

Bəli, bütün bunlar hamımızda qürur hissi doğurur. Lakin bu məqamda inanmaq istərdim ki, xalqımız ikinci gözəgörünməz düşmənə – COVID–19 pandemiyasına da qalib gələcək. Bunun üçün hər bir kəs mütəxəssis tövsiyələrinə riayət etməli, virusa qarşı mübarizə qaydalarını daim diqqətdə saxlamalıdır.

***Kubra CABBAROVA,***
***1 saylı şəhər poliklinikasının baş həkimi***